# “Bu səs heç vaxt batmayacaq”

## Elnarə Abdullayeva konsertinin uğurlu keçməsini xalqın sevgisi ilə izah edir



Əməkdar artist Elnarə Abdullayeva tamaşaçıları qarşısında 3 günlük konsert proqramı ilə çıxış etdi. Heydər Əliyev Sarayında keçirilən konsertdə çox maraqlı anlar yaşandı. İfaçı konsertin bir günündə saraya qocalar evinin sakinlərini, qaziləri və şəhid ailələrini toplamışdı.

Qeyd edək ki, Elnarə Abdullayevanın üç günlük konsertini tanınmış prodüser Asif Kərimov təşkil etmişdi. Konsertin repertuarı da məhz onun seçimi ilə hazırlanmışdı.

Konsertdən sonra ifaçının ünvanına müxtəlif sözlər deyildi. Kimisi Əməkdar artistin səsinin batdığını, kimisi isə onun ailə üzvlərini konsertə buraxmadığını dedilər. Elnarə Abdullayeva deyilənlərə eksklüziv olaraq “Kaspi”də cavab verdi.

**- Elnarə xanım, üç günlük konsertdən sonra özünüzü necə hiss edirsiniz?**

- Allah-təala hər kəsə can sağlığı versin. Bir az yorğunam. Tanrım xalqımızı var etsin. İnsanlarımız məni sanki dünyanın ən böyük zirvəsi Comolunqmaya qaldırdı. Hətta məni o Comolunqmadan da yuxarıya qaldırdılar. Xalqıma, millətimə, insanlarıma, vətəndaşlarıma necə təşəkkür edəcəyimi bilmirəm. O qədər ağlamışam ki... Ya Rəbbim, bu sakitliyi, rahatlığı, əmin-amanlığı daimi et. Daimi et ki, könül rahatlığı ilə biz öz işlərimizi görək. Tanrım insanlarımıza dəyməsin, ruzilərini bol etsin.

**- Bu qədər sevildiyinizi bilirdinizmi?**

- Xalqımı onların məni sevdiyindən də artıq sevirəm. Bunu hər zaman demişəm. Demişəm ki, siz məni bir istəsəniz, mən sizi on istəyərəm. Deyirlər, ruhdan ruha yol var. Doğrudan da bildim ki, xalqımız məni çox sevir. Sən demə, mənim sevgim qarşılıqlı imiş. Allah onların hamısından razı olsun.

**- Adətən muğam sənətkarlarının konsertinə azsaylı tamaşaçı gəlsə də, konsertinizdə bunun tam əksi ilə rastlaşdıq.**

- Biz əvvəlcə bir günlük konsert vermək istəyirdik. Ağlıma belə gəlməzdi ki, mən üç günlük konsert proqramı ilə çıxış edərəm. Konsertin çoxluğu biletlərin satışından irəli gəlir. Vaxtımız çox az idi. Qısa müddətdə konsertə hazırlaşdıq. Söhbəti hara çevirsək də, onun altından insanlarımız çıxır, məni onların sevgisi yaşadır. Göydə Allah, yerdə xalqım. Sanki mənim yerimə xalqım konsert verib (gülür).

**- Deyirlər ki, konsertinizə övladlarınız, qayınatanız, hətta yaxın qohumlarınız belə bilet tapmayıb. Gəzən söz-söhbətlər doğrudurmu?**

- Tövbə, tapmayıblar (gülür). Bunlar şayiə deyil. Konsert günü qızım mənə dedi ki, ana, biz harada əyləşəcəyik? Dedim ki, mən bilmirəm. O işlərə mən baxmıram. Qayınanam, qayınatam konsertimə həmin gün gələ bilməmişdilər. Sonra gəlmişdilərsə, harada yer tapıblar, orada da oturmuşdular. Dəqiq bilmirəm ki, mənim ailə üzvlərim konsertimə nə vaxt gəliblər. Doğrudan da, bunlarla məşğul olmağa vaxtım yox idi. Onlara bilet ayırmağa imkan edə bilmədim. Mən bir az bu işdə doğmalıq etdim. Belə ki, doğma bacılarıma, qardaşlarıma harada oturacaqlarını dedim.

**- Konsertinizə İrandan, İsraildən, Türkiyədən, Rusiyadan tamaşaçılar gəlmişdi. Onlarla öncədənmi danışmışdınız, yoxsa onlar da sıravi tamaşaçı idi?**

- Onların heç biri ilə tanışlığım yoxdur. Bəzi xariciləri keçən ilki konsertdən tanıyırdım. Tanıdığım başqa xarici qonaqlar yox idi. Konsertə hazırlaşdığım üçün təxminən bir ay telefona yaxın durmadım. Ona görə köməkçimə zəng edib deyiblər ki, İrandan, Rusiyadan, İsraildən, Astanadan konsertə görə gəlmişik. O da mənə



edilən zəngləri çatdırırdı. Hamısına təşəkkürlərimi göndərirdim. Allah xalqıma dəyməsin. Mən kiməm ki? Vətəndaşlarımız olmasaydı, heç konsert də verə bilməzdim. İşin başında yenə də xalqım durur.

**- Elnarə xanım, ifa etdiyiniz çox ağır və qəliz muğamlar idi. Hətta konsertdə Ağaxan Abdullayev də bildirdi ki, hər xanəndə bu muğamları ifa etməyə cəsarət etməz. Repertuarı özünüzmü seçmişdiniz, yoxsa prodüseriniz kömək etmişdi?**

- Qəzəlləri özüm seçirəm. Mahnılarda bir az prodüserlə məsləhətləşdik. Məsələn, “Şur” təsnifini oxumaq üçün prodüser mənə necə kömək edəcək ki? Siz bilirsiniz ki, maraqlı qəzəlləri sevirəm.

**- Konsert boyu tamaşaçılarla canlı ünsiyyət qurururdunuz. Bu üslubdan daha çox xarici ifaçılar istifadə edirlər.**

- Konsert zamanı nələrin olacağını bilmirdim. Robot kimi səhnədə necə dayana bilərəm? Mən də bu xalqın içindən çıxmış bir nümayəndəyəm. Əslinə baxanda mən heç kiməm. Tamaşaçılar gəlib zalda oturubsa, necə mahnı oxuyub çıxıb gedə bilərdim? Zalda yaşlı insanlar var idi. Özünüz bilirsiniz ki, yaşlıları çox sevirəm. Mən onlara necə “Xoş gəlmisən” deməyim? Axı mən o insanları yolda görəndə onlarla görüşürəm, salamlaşıram. Burada nə üçün deməyim ki? Konsert verirəm deyə mən böyük adam oldum ki? İnsanın evinə qonaq gələndə onunla danışmır? Mən xaricilərin konsertlərini çox da izləməmişəm. Gündəlik həyatımda, evdə necə davranıramsa, tamaşaçılarla da o münasibəti saxlamışam. Bilməmişəm ki, xaricilər də konsertlərində belə edirlər. Tez-tez tamaşaçılara sual verirdim, maraqlanırdım ki, görəsən darıxırlarmı. Deyirdim ki, darıxsanız mənə deyin. Tamaşaçılar mənə görə əziyyət çəkməməlidirlər. Ona görə tamaşaçılara tez-tez sual verirdim ki, əgər xoşlarına gəlmirsə, desinlər başlarını ağrıtmayım. Ya da etika xətrinə orada oturmasınlar. Darıxsalar, desinlər. Mən iki daşın arasında da repertuarı dəyişə bilərəm. Təki mənim qonaqlarım darıxmasınlar. O qədər insanın haqqını yemək olmaz. Orada çıxış etmək üçün böyük bir çıxış hazırlamışdılar. Mən necə səhnəyə çıxıb: “Cam, cəm, sınız, siniz”lə tamaşaçılarla danışım? Mən kənd qızıyam. Axı mən belə danışmamışam. 40 ildir kənd ləhcəsi ilə danışıram. Səhnədə necə şəhər ləhcəsi ilə danışım? Mənim yaxın adamlarım deyir ki, niyə danışığını dəyişmirsən? Şəhərdə yaşayanda nə olar ki? 20 il kənddə yaşamışam. Məgər adam şəhərə gələndə dilini, danışığını dəyişir? Kənd qızıyam, belə gəlmişəm, belə də gedəcəm.

**- Konsertdən sonra saytlar yazdı ki, Elnarə Abdullayevanın səsi batdı, həkimlər Əməkdar artistə danışmağa icazə vermədi. Bu nə məsələ idi?**

- (gülür) Bu səs heç vaxt batmayacaq. Bu, batan səs deyil. Yalnız Allahın rizası ilə bu səs bata bilər. Ya Rəbbim, konsertlər nəsib et bizlərə. Bilirsiniz nə üçün danışmıram? Çünki yorğunam. Həkim mənə doğrudan da deyir ki, çox danışma. İndi sizinlə danışanda da səsim başıma düşür. Konsertdə oxuduğum qəzəlləri 15 günə seçmişəm. Mən ondan ötrü Xətainin, Füzulinin kitablarını oxumuşam. Yaxın dostlarım mənə hər gün yeni qəzəllər göndərirdilər. Onların hamısını oxuyub yoxlayırdım. 15 gün ərzində onları oxuyub səsləri yerinə qoymaq sizə asan gəlməsin. Bunun özü bir psixoloji gərginlikdir. Oxuduqlarımın içində “Müjdə, ey dil, yenə də gəldi bahar əyyamı” qəzəlini əvvəl oxumuşdum. Onu da bahar gəldiyi üçün ifa etdim. Qalan qəzəlləri özüm oxumuşam, başqaları oxumayıb. Heç kimin oxuduğu qəzəli ifa etməyi xoşlamıram. Mən “Müjdə, ey dil, yenə də gəldi bahar əyyamı” qəzəlini oxuyanda onu heç kim ifa etmirdi. 20 il bundan qabaq oxumuşam o qəzəli. Ümumiyyətlə, qəzəl ruhdur. Qəzəl insanın ruhundan, beynindən gələn bir nemətdir. O ki qaldı səsimin batmasına, siz də yazın ki, heç kim narahat olmasın, əziyyət çəkməsinlər. Bu səs batan deyil. Allahın əmri olmasa, O istəməsə, bu səsə heç nə olmayacaq. Bundan ötrü heç kəs narahatçılıq keçirməsin. Üç günlük canlı konsertdə ən qəliz muğamlar ifa etmişəm. Yəqin ki, bu konsertdən sonra bəziləri bu səssədadan sonra öz qısqanclığını bu şəkildə büruzə verirlər.

**Xəyalə Rəis**



# Aydan Həsənova beynəlxalq müsabiqəyə qatılacaq

## Tədbirin may ayında Yekaterinburqda keçirilməsi planlaşdırılır



Azərbaycan Dövlət Musiqili Teatrının gənc aktrisası Aydan Həsənova beynəlxalq müsabiqədə ölkəmizi təmsil edəcək. Teatrın mətbuat katibi Samir Sədaqətoğlu “Kaspi”yə açıqlamasında bildirib ki, söhbət may ayında Yekaterinburqda keçiriləcək SSRİ Xalq artisti Vladimir Kuroçkin adına Gənc operetta və müzikl artistlərinin VI beynəlxalq müsabiqəsindən gedir. Dövlət Musiqili Teatrının aktrisası Aydan Həsənova bu mötəbər tədbirdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin maddi dəstəyi ilə iştirak edəcək. Qeyd edək ki, müsabiqə Rusiya Federasiyası Mədəniyyət Nazirliyi, Rusiya Teatr Xadimləri İttifaqı, Musiqili Teatrların Beynəlxalq Assosiasiyası, “Qerard Vasilyev adına operetta janrının qorunub saxlanması və inkişafı fondu” Sverdlovsk Vilayət Mədəniyyət Nazirliyi və Sverdlovsk Vilayət Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə baş tutacaq. Operetta və müzikl çərçivəsində “Vokal və səhnə sənəti” nominasiyasında keçiriləcək müsabiqədə Rusiyadan və xarici ölkələrdən 35 yaşa qədər olan gənclər iştirak edəcəklər. Müsabiqə 2016-cı il 16-21 may tarixlərində Rusiya Federasiyasının Yekaterinburq şəhərində Sverdlovsk Dövlət Akademik Musiqili Komediya Teatrında keçiriləcək. Aydan Həsənova müsabiqədə Ü.Hacıbəylinin “Arşın mal alan” operettasından Gülçöhrənin ariyasını, İ.Dunayevskinin “Azad külək” operettasından Pepitanın mahnısını və F. Leqarın “Sirkin şahzadəsi” operettasından Teadoranın ariyasını ifa edəcək.